# Bakı daha bir mötəbər tədbirin ev sahibidir

## SPECA-nın Zirvə görüşü ölkəmizin gələcək iqtisadi imkanlarını daha da genişləndirəcək



Azərbaycan daha bir mötəbər tədbirə evsahibliyi edib. Ötən gün Bakıda BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı olan SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşü keçirilib. Sammitdə proqramın üzvü olan ölkələrin başçıları və digər yüksək səviyyəli rəsmiləri iştirak ediblər.

Mövzu ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Azərbaycanın SPECA-nın Zirvə görüşünə evsahibliyi etməsi əlamətdar hadisədir: "Bu gün Azərbaycanın bir çox önəmli tədbirlərdə evsahibliyi etməsi bizim mövqeyimizi gücləndirir. Belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi həm də ölkəmizin gələcək imkanlarını daha da genişləndirir".

Deputat bildirib ki, Azərbaycan beynəlxalq tədbirlərin keçirildiyi mühüm məkana çevrilib: "Bu, həm də ölkəmizin bir çox istiqamətlərdə davamlı olaraq uğurlu addımlar atmasının nəticəsidir. Belə tədbirlərdə fərqli ölkələrdən prezidentlər və digər rəsmi nümayəndələr iştirak edirlər ki, bu da Azərbaycana olan marağı artırır. Açıq-aşkardır ki, bu gün Azərbaycanda dünyanın az ölkəsində müşahidə edilən  inkişaf var".

Ceyhun Məmmədovun dediyinə görə, tədbirdə Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa xüsusi önəm verdiyi bir daha görünür. "Ümumiyyətlə, son illər Azərbaycanın bu regionda yerləşən ölkələrlə münasibətlərinin intensivləşməsi diqqətdən yayınmır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev son iki il ərzində Mərkəzi Asiya dövlətlərinə 10-dan çox səfər edib", - deyə müsahib bildirib.

Deputat vurğulayıb ki, dövlət başçısı hər zaman ölkəmizin Mərkəzi Asiya dövlətləri ilə münasibətlərini yüksək qiymətləndirib. Prezident bu barədə deyib: "Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 25 noyabr, № 257.- S.10.